# RUHUMUZUN KREDOSU

## Ustad şairimiz Əli Rza Xələfliyə açıq məktub

*Hörmətli Əli Rza müəllim!*

*Sizin "Azərbaycan" Nəşriyyatının bağlanması ilə əlaqədar çıxışınızı dinlədiyim zaman yalnız bir ziyalının mövqeyini deyil, bir dövrün yaddaşını, sözə və mətbuata sədaqətini hiss etdim. O çıxışda hay-küy yoxdur, amma dərin bir nisgil var. Elə bir nisgil ki, illərlə mətbəə qoxusu yaşayanların, qəzet səhifələrində ömür qoyanların ürəyindən gəlir.*

*Mən də həmin ürək sahiblərindən biriyəm. Ömrümün müəyyən illəri "Azərbaycan" Nəşriyyatı ilə, sizin baş redaktoru olduğunuz "Kredo" qəzeti ilə bağlı olmuşdur. İlk kitabım -"Yuxalarımın harayı" da sizin xeyir-duanızla və çox dəyərli ön sözünüzlə 2004-cü ildə bu məkanda işıq üzü görüb.*

*Siz nəşriyyatın bağlanmasını sadə inzibati qərar kimi təqdim etmədiniz. Haqlı olaraq onu milli yaddaşa, ədəbi ənənəyə, milli mətbuatımıza qayğı ilə yanaşan insanların münasibəti kimi dəyərləndirdiniz. Çünki "Azərbaycan" Nəşriyyatı sadəcə bir bina, bir ad deyil, o, sözün məsuliyyətinin duyulduğu, müəlliflərin və çoxsaylı oxucuların özlərini tapdıqları məkandır.*

*Hörmətli Əli Rza müəllim, siz danışanda yalnız bir şair, bir redaktor danışmır, bir vicdan, bir yaddaş, mətbuata həsr olunmuş bir ömür danışır.*

*Bu da bir yolayrıcıdır. İnanıram ki, qarşınızdakı yeni yol, yeni məkan da Sizə yeni-yeni uğurlar gətirəcək. Təki sağlıq olsun...*

*Hörmətlə:*

**HİDAYƏT SƏFƏRLİ.**

Kredo .- 2026.- 4 fevral (№05).- S.1.